**Sevda Bəxtiyar**

# ANA DİLİNDƏ DANIŞIR VƏ ƏYLƏNİRƏM

*Məktəbəqədər təhsil sistemində 3-6 yaşlı uşaqların tərbiyəsi və təhsili üçün*

*İŞ DƏFTƏRİ*



Yonca

## ŞƏRTİ İŞARƏLƏR

**Fikirləş və de**

**Qeyd et**

**Qırıq xətləri birləşdir**

**Rənglə, boya**

**Öyrən, əzbərlə**

**Sevda Bəxtiyar. Ana dilində danışır və əylənirəm**
**Məktəbəqədər təhsil sistemində 3-6 yaşlı uşaqların tərbiyəsi və təhsili üçün iş dəftəri**
**Kitabda istifadə edilən şeir mətnləri müəllifə aiddir**

Kitab uşaqlara səslərin doğru tələffüzünü, dedikləri sözlərin mənasını, sadə kəlmələrin, məişətdə, həyatda işlənən sözlərin, söz birləşmələrinin anlamını və tələffüzünü öyrətmək, sadə riyazi tapşırıqları həll etmək üçün əyani tədris vəsaitidir. Məşğələlər zamanı balacalar bu söz və söz birləşmələrindən istifadə edərək özləri, ailələri, dostları haqqında sadə hekayələr qura, sizə və yoldaşlarına danışa bilərlər.

ISBN 978-9952-38-936-4

© "Yonca", 2024
© Sevda Bəxtiyar, 2024

Yonca

Uşaq ədəbiyyatı ilə bağlı bütün təklif və iradlarınızı bu ünvana yazın: **yoncakitab@gmail.com**

# ƏZİZ MÜƏLLİMLƏR,
# HÖRMƏTLİ VALİDEYNLƏR,
# ŞİRİN-ŞƏKƏR BALALAR!

"Yonca" uşaq redaksiyasının təqdim etdiyi bu vəsait "Ana dilində danışır və əylənirəm" adlanır. Bu vəsaitdən istifadə etməklə siz övladlarınıza səslərin doğru tələffüzünü, dedikləri sözlərin mənasını, sadə kəlmələrin, məişətdə, həyatda işlənən sözlərin, söz birləşmələrinin anlamını və tələffüzünü öyrədə bilərsiniz. Uşaqlar bu söz və söz birləşmələrindən istifadə edərək özləri, ailələri, dostları haqqında sadə hekayələr qura, sizə və yoldaşlarına danışa bilərlər.

İş dəftərindən uşaqlarla yanaşı, məktəbəqədər tərbiyə ilə məşğul olan mütəxəssislər və valideynlər də yararlanacaqlar. Bu vəsait uşaqların diqqətini maraqlı oyunlarla cəlb etməyi, onların özlərinin müstəqil şəkildə oyunlar qurmağı üçün münbit şərait yaradacaq.

Nəzərə almaq lazımdır ki, uşaqlar ana dilini öyrənməklə öz dünyagörüşlərini genişləndirir, ünsiyyətcil və diqqətli olurlar. Kitabın üstünlüyü tapşırıqların oyun şəklində təqdim edilməsidir ki, bu da uşaqları həm əyləndirir, həm də onların formalaşmasına təkan verir.

Sizə zehin açıqlığı arzu edirik, ƏZİZ BALALAR!

**Hörmətlə:**

*Sevda Bəxtiyar*

# GƏL TANIŞ OLAQ

1. Öz portretini çək, sonra da özün haqda danış.



2. Nöqtələri birləşdir.



# MƏNİM DOĞMA AİLƏM

Ailə – sənin özünü rahat, doğmalarının qayğısı ilə əhatə olunmuş hiss etdiyin yerdir. Sən burada böyüyüb boya-başa çatır, sevinir, əylənir, oxuyursan. Sən ailədə özünə doğma olan insanları – nənəni və babanı, atanı və ananı, qardaşlarını və bacılarını sevməyi, onlara qarşı diqqətli olmağı öyrənirsən. Ailə hər bir insan üçün dəyərlidir. Sən burada ilk müşahidələrini aparır, özün üçün ilk kəşfləri edir, həyat təcrübəsi qazanırsan. Sən ailə üzvlərinlə birlikdə ad günlərini, bayramları qeyd edir, parka, bulvara gəzməyə çıxır, kinoya, tamaşaya, sirkə baxmağa gedirsən.

1. Şəklə bax. Şəkildə kimlər təsvir olunub?
Öz doğmaların haqqında hekayə qurub danış.



2. Qırıq xətləri birləşdir.

